# Quran təfsirinin *müxtəsər icmali*




BİFİ Müxtəsər kitablar seriyası

# QURAN TƏFSİRİNİN MÜXTƏSƏR İCMALI

**Əli Süleyman Əli**

Beynəlxalq İslam Fikri İnstitutu

"İdrak" İctimai Birliyi

**Quran təfsirinin müxtəsər icmalı (Azeri)**
*Əli Süleyman Əli*
*BİFİ Müxtəsər kitablar seriyası*

© "İdrak" İctimai Birliyi
və Beynəlxalq İslam Fikri İnstitutu
1445 (hicri) / 2023 (miladi)
*Paperback* ISBN: 978-9952-8445-4-2

**A Brief Introduction to Qur'anic Exegesis (Azeri)**
*Ali Suleiman Ali*
*IIIT Books-in-Brief Series*

© The International Institute of Islamic Thought (IIIT)
1439AH / 2018CE
*Paperback* ISBN: 978-1-56564-985-9
IIIT
P.O. Box 669
Herndon, VA 20172, USA
www.iiit.org

Tərcüməçi və redaktor: Məmmədəli Babaşlı
Bədii və texniki tərtibat: Həsən Həsənov
"İdrak" İctimai Birliyi
Azərbaycan, Bakı ş., Mirəli Seyidov 3138,
korpus D, 1-ci mərtəbə
idrak.org.az

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (3-32/2-1229/2023, 21 iyul 2023-cü il)

Bütün hüquqlar qorunur.

## Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ)
## Müxtəsər kitablar seriyası

Beynəlxalq İslam Fikri İnstitutunun müxtəsər kitablar seriyası institutun əsas nəşrlərindən xülasə edilərək hazırlanmış variantlarından ibarət mühüm layihədir. Məqsəd oxucuda orijinalın əsas məzmunu haqqında ümumi təsəvvür oyatmaqdır. Qısa, oxunaqlı və vaxta qənaət etmək imkanı verən formatda hazırlanmış bu müxtəsər kitablar bir növ bələdçi rolunu yerinə yetirir. Xüsusi diqqət və səylə hazırlanmış müxtəsər kitabların oxucularda maraq və əsas nəşrlə daha yaxından tanış olmaq arzusu oyadacağına ümid edirik.

Əli Süleyman Əlinin "Quran təfsirinin müxtəsər icmalı" adlı mövcud əsəri təfsir elmi sahəsində ixtisaslaşan tələbələri Məhəmməd peyğəmbərin (*Ona Allahın xeyir-duası və salamı olsun!*) dövründən günümüzə qədər təfsirşünaslığın keçdiyi inkişaf yolu ilə tanış etmək məqsədini daşıyır. Kitabda Həzrət Peyğəmbərin Quranı təfsir etmə metodunun mahiyyəti, xüsusiyyətləri və metodologiyası öz əksini tapır. Həmçinin səhabələrin və onları həyatda görərək hədis dinləmiş nəsil mənasına gələn tabiilər dönəmi təfsirlərinin mötəbərlilik dərəcəsi, xüsusiyyətləri və metodologiyaları müqayisəli təhlilə cəlb olunur.

Mövcud müxtəsər icmalın tərtibi zamanı müəllifləri qeyd edilməklə müxtəlif təfsir növlərindən bir sıra izahlara da yer verilir. Kitabda iki əsas təfsir növü olan "ət-təfsir bil-mə'sur" ("rəvayət əsaslı təfsir") və "ət-təfsir bir-rə'y" ("dirayət təfsiri") nəzərdən keçirilir. Eyni zamanda dünyada təfsir sahəsindəki yeni araşdırmalara da müraciət edilən kitabda klassik əsərlərlə müasir təfsirlər arasındakı bəzi fərqliliklərə də diqqət yetirilir. "Quran təfsirinin müxtəsər icmalı" əsərinin yazıl-

masının əsas məqsədi oxuculara təfsir elminin keçdiyi inkişaf yolu və bır sıra məşhur Quran müfəssirlərinin əsərləri barədə məlumat verməkdir. Bu müxtəsər icmalın xüsusilə təfsir elminə dair fənlərin tədrisi prosesində tələbələrin marağına səbəb olacağına və onlarda təfsir sahəsində tədqiqat aparmağa maraq oyadacağına ümid edirik.

# Birinci fəsil
# **Tarixi baxış**

Təfsir elminin məqsədi Allahın müqəddəs kitabı Qurani-Kərimdə peyğəmbəri Həzrət Məhəmmədə (*Ona Allahın xeyir-duası və salamı olsun!*) vəhy edilmiş ilahi kəlmələrin mənalarını açıqlamaqdır. Bu səbəbə görə adətən Quranın izahı və ya şərhi olaraq başa düşülür. Təfsir əsas İslam elmlərindən biridir. Ərəb dilində f-s-r kökündən meydana gələn kəlmə "açmaq, ortaya çıxartmaq, örtüyü qaldırmaq"[1] mənalarını ehtiva edir. Klassik islam alimləri isə "təfsir" kəlməsinin "açıqlamaq" mənasını verən "fəssəra" feilindən düzəlmiş məsdər olduğunu qeyd edirlər.

Lüğəvi anlayış etibarilə "bəyan etmə" mənasını ifadə edən təfsir və "açıqlama" mənasına gələn təvil Quranın şərhini və ya üstü örtülü mənasını açmaq məqsədilə alimlər tərəfindən bir-birinin yerinə işlədilə bilən sinonim və ya yaxınmənalı iki termindir.

### **Təfsir və təvil arasında fərq**

Məhəmməd bin Məhəmməd əl-Maturidiyə (vəfat tarixi hicri 333-cü il) görə, təfsir Allahın Qurani-Kərimdəki ayələrdə hansı mənanı murad etdiyini təsbit edərək ortaya qoyduğu, mətnin sonuncu mənasını açıqladığı halda, təvil mətnin birdən çox açıqlaması olduğu təqdirdə ən çox ehtimal olunanı dəstəkləmək üçün istifadə edilir.[2] Təvil daha çox mənaları və cümlələri izah etmək məqsədilə dini mətn və kitablarda tətbiq edilərkən, təfsir isə dini mətnlərlə yanaşı, Quran elmləri və İslam hüququ kimi sahələrdə istifadə olunan metoddur.[3]

Şəxsi qənaətimizə görə, təfsir termini hicri 1-ci əsrin ikinci yarısında və ya sonlarına doğru Qurani-Kərimin açıqlaması mənasına gələcək şəkildə elmi dövriyyəyə daxil edilmişdir. "Mə̲ yu'cibuni̲ cəra'ət ibn Abbəs 'alə̲ təfsi̲ril-Qur'an fəl-'ə̲n qad 'aləmtu 'ənəhu 'utiyə 'ilm" ("İbn Abbasın Quranın təfsirinə cəsarət etməsi xoşuma gəlmir, amma ona artıq bir elmin verildiyini bilirəm".)[4] deyən Abdullah bin Ömərin Quranı şərh etmək üçün təfsir kəlməsindən istifadə etdiyi bilinən ilk şəxs olduğu güman edilir.

Lakin bu termindən nə bilavasitə Qurani-Kərimdə, nə də hədislərdə "Quran ayələrinin izahı, şərhi" mənasına gələcək şəkildə bəhs edilməmişdir. Digər tərəfdən, Quranda təfsir kəlməsi sadəcə bir yerdə ("Furqan" surəsinin 33-cü ayəsində) "izah" mənasında istifadə olunmuşdur. İstər Peyğəmbər (*Ona Allahın xeyir-duası və salamı olsun!*), istərsə də səhabə bəzi Quran ayələrini məcazi mənada açıqlamışdırlar. Bununla birlikdə, Peyğəmbər və səhabənin bu qəbildən izahları təvil deyil, təfsir olaraq tövsif edilmişdir. Zənnimizcə, bu durum əksəriyyəti üçün səciyyəvi olmasa da bir çox təfsir aliminin iki termin arasında hər hansı bir fərq görməməsindən irəli gəlmişdir.

### Məhəmməd peyğəmbər və təfsir

Qurani-Kərimin ilk müfəssiri bilavasitə İslam Peyğəmbəri (*Ona Allahın xeyir-duası və salamı olsun!*) hesab olunur. Ancaq onun dövründə yaşayan ərəblər üçün ayələrin bir çoxunun məna etibarilə aydın, mətnin də ana dillərində nazil edilməsi baxımından başa düşülən olması səbəbindən Quran sözbəsöz izah edilməmişdir. Ümumiyyətlə, Peyğəmbər (*Ona Allahın xeyir-duası və salamı olsun!*) Qurani-Kərimin ayələrini adətən bu üç halda: hansısa bir hissənin ərəb dilinin mövcud dil qaydaları baxımından anlaşılmadığı; müsəlman alimlərinin hər hansı bir ayədə Allahın hərfi mənanı nəzərdə tutmadığını düşündükləri və yaxud səhabələrdən kiminsə müəyyən ayələri açıqlamasını istədiyi zaman müvafiq izahat verirdi.

Məsələn, Həzrət Peyğəmbərdən Qurani-Kərimin "Yunus" surəsinin 63-cü və 64-cü ayələrində keçən "buşra" ("müjdə") kəlməsinin mənası soruşulduğunda bir adamın gördüyü və ya onunla bağlı görülən gözəl röyadan bəhs edən ayəni xatırlatması misal olaraq göstərilə bilər.[5] Bir başqa örnək də Ramazan ayı ərzində orucun pozulması xüsusuna dair Quranın əmri ilə bağlıdır. Belə ki, Peyğəmbər (*Ona Allahın xeyir-duası və salamı olsun!*) Quran ayəsində qeyd edilən ağ və qara sapın sabaha doğru erkən saatlarda üfüq xətti boyunca görünən işığın səmanın qaranlığı ilə təzad təşkil etməsindən bəhs etdiyini açıqlamışdır.[6]

### Məhəmməd peyğəmbərin vəfatından sonra təfsir

İslam Peyğəmbərinin (*Ona Allahın xeyir-duası və salamı olsun!*) vəfatından sonra yaşayan müsəlmanlar bəzi səhabələrin Quran elmi baxımından müəyyən bilik və qabiliyyətləri olduğunu aşkar etdilər. Həzrət Peyğəmbər hələ həyatda ikən onların Quran bilikləri sahəsində malik olduqları üstün mövqelərini üç şəkildə bəlli edirdi. Birincisi, Qurani-Kərimi və İslamı öyrətmələri üçün onları başqa şəhərlərə göndərirdi. İkincisi, Həzrət Peyğəmbər üstün qabiliyyətə malik səhabələrin bəzilərini vəsf edərdi. Üçüncüsü isə bəzi səhabələrdən onun hüzurunda fitva (hüquqi rəy, qərar) vermələrini istəyərdi.[7] Həzrət Peyğəmbərin vəfatından sonra Quranın şərh edilməsi və əzbərdən oxunması (qiraəti) sahəsində müsəlmanların yaşadıqları coğrafi bölgəyə uyğun olaraq adlandırılan dörd fərqli ənənə: Məkkə, Mədinə, Kufə (müasir İraq ərazisində) və Şam (müasir dövrdə Fələstin, Suriya və Livan ərazisi) meydana çıxdı.

### Tabiilər dövründə təfsir

Hicri 2-ci əsrin sonlarında səhabələrin müasirlərindən (tabiilərdən) artıq kimsə həyatda qalmamışdı. Həmin dövrün təfsirçilərindən heç biri Quranın şərhinə dair əsər yazmamışdı. Eyni dövrdə Mücahidin[*] Quranın bütün təfsirini yazdığı iddia edilir.

---

[*] Mücahid bin Cəbr (v.t. 103/721), tabiin nəslindən və təfsir elminin görkəmli nümayəndələrindən biridir – tərcüməçi qeydi.

Hicri 2-ci əsrin ikinci yarısında müxtəlif alimlər öz ixtisasları və maraqlarına uyğun olaraq Quran mövzusunda əsərlər tərtib etməyə başlamışdılar.

Hicri 3-cü əsrin sonu – 4-cü əsrin əvvəllərində qrammatiklər, dilçilər və ənənəçilər tərəfindən istifadə olunan yanaşma və metodlar inkişaf etməyə başladı. Beləliklə, təfsir kitabları hədis kitablarından ayrıldı və iki müstəqil elmin əsası qoyuldu. Təfsir elminin ixtisas olaraq formalaşması bu şəkildə davam etdi.

Təfsir kitablarının hədislərdən ayrıldığı dövrdən sonra hər biri özünəməxsus ədəbiyyata və məsələlərə malik iki müstəqil elmə çevrildi. Misal üçün, hədis kitabları yalnız Həzrət Peyğəmbərin əməlləri və sözləri barədə rəvayət yolu ilə nəql edilən xəbərləri əhatə etdi. Təfsir kitabları isə həm Həzrət Peyğəmbər, həm də səhabələr və tabiilər tərəfindən Quranın şərhinə dair verilmiş izahlarla yanaşı, bu sahədə linqivistik, ritorik, hüquqi və dini mülahizələrlə əlaqədar məlumatları da diqqətə çatdırmağa başladı. Hədis və təfsir iki ayrı sahəyə ayrıldıqdan sonra qeyd olunan məlumat və mülahizələr ciddi araşdırmaların obyektinə çevrildi. Nəticə etibarilə, təfsir ədəbiyyatı "ət-təfsir bil-mə'sur" ("rəvayət əsaslı təfsir") və "ət-təfsir bir-rə'y" ("dirayət təfsiri") adlanan iki əsas növə ayrıldı.

## İkinci fəsil
## **Hicri 3-cü və 4-cü əsrlərdə təfsir**

Hicri 3-cü və 4-cü əsrlərdə təfsirin yazılması sahəsində nəzərəçarpan irəliləyişlər oldu. İsnad yoluyla təfsir elmi ilə məşğul olmaq praktikası geniş yayıldı. İxtisaslaşma tələb edən cəhəti olması baxımından Quranın şərhi İslam elmləri ilə məşğul olan alimlərin və leksikoqrafların da diqqətini cəlb etdi. Beləliklə, onlar özünəməxsus keyfiyyətlərə malik təfsir şərh-

ləri yazmağa başladılar. Təbərinin "Cəmi'ul-bəyən 'an tə'vi-lil-Qur'an" adlı əsəri ümumən təfsir elmi barədə yazılmış ən müfəssəl əsər olaraq qəbul edilir.

**Təbəridən sonra baş verən mühüm yeniliklər**

Hicri 4-cü əsrdən etibarən Quranın təfsiri sahəsində üç mühüm yenilik baş verdi. Süyutinin təsnifatına görə, sözügedən yeniliklər bunlardır: a) "İxtisar əl-əsənid" adlanan (təsdiqlənməmiş ifadələrin əlavə edildiyi) rəvayət zəncirlərinin ixtisarı, b) İxtisaslaşma dövrü, c) "Təfsir əl-bid'ət" (bidət şərhi) adlanan qeyri-ənənəvi şərhlərin meydana gəlməsi.[8] Bunlardan başqa, həm Quranın surələri, həm də hər bir surənin ayələri arasında əlaqədən bəhs edən "Nəmud-durar fi tənəsubil-əyət vas-suvar" təfsir yazma üsulu da bu dövrdə ortaya çıxdı.

Hədis elmində rəvayət zəncirinin ixtisar edilməsinə "ixtisar əl-əsənid" deyilir. İslam alimləri müəyyən bir rəvayət zəncirində (isnad) verilən hər bir mühəddisin və ya hədisi nəql edən ravinin adını təkrarlamaqdansa, "isnad"ı tamamilə ixtisar etməyə başlamışdılar. Lakin bu üsul İslam elmlərinin metodologiyasına zidd idi, çünki məlumatların əxz edildiyi mənbələrin yoxlanılmasına imkan vermirdi. Bu üsulla mövcud olmayan və ya etibarsız mənbələrdən məlumatın əldə edilməsi, mənimsənilməsi asanlaşdı və geniş yayıldı. Nəticədə düzgün və yanlış məlumatlar arasında fərq qoymağa imkan verməyəcək dərəcədə bir çox zəif və mötəbərliliyi şübhə doğuran mətn qələmə alınmış oldu. Bununla yanaşı, Süyuti və digər alimlər mütəxəssislərin Quranın təfsirini qrammatik, hüquqi və ilahiyyat baxımından təhlil etmələrini əsas alaraq öz ixtisas sahələri çərçivəsində ortaya qoyduqlarına görə hicri 5-ci əsrdən sonrakı mərhələni təfsir yazılması sahəsində ixtisaslaşma dövrü hesab edirlər.

Üçüncü xəlifə Osman ibn Əffana qarşı sui-qəsdin və müsəlmanların qarşı-qarşıya qaldıqları dini-siyasi qarşıdurmanın ardınca üç əsas qrup ortaya çıxdı: ələvilər (Əli ibn Əbi Talibin

tərəfdarları), əməvilər (Müaviyə ibn Əbi Sufyanın tərəfdarları) və xaricilər. Müsəlmanlar arasında sünni və şiə parçalanması da bu dövrə təsadüf etdi. Hər üç qrupun üzvləri bir-birini saxta müsəlman olmaqda ittiham edirdilər. Davam edən bu məsələ ümumən tanınmış müfəssirlərin mətnlərində, xüsusilə təfsirə aid əsərlərdə də öz əksini tapdı. Təbərinin "Cəmi'ul-bəyən" əsəri sünni nöqteyi-nəzərini təmsil edən təfsirlərdəndir. Sünni təfsirləri ilə yanaşı, şiə təfsirləri də inkişaf etdi. Onların arasında iki əsas fərq mövcuddur: birincisi, bəzi şiələr Quranın ilk növbədə imamları Əli ibn Əbi Talibə və onun nəslindən olan on bir imama müraciət etdiyinə inanırlar; ikincisi, Həzrət Peyğəmbərdən sonra Quran xüsusunda yalnız on iki imamın hüquqi səlahiyyətli olduğuna inanır və o şəkildə qəbul edirlər.

Daha əvvəl də qeyd etdiyimiz kimi, ənənəçilər Quranın bəzi kəlmələrini öz baxışlarına uyğunlaşdırmaq məqsədilə təhrif etdiklərinə inandıqları mötəzililərin təfsirini bidət adlandırırdılar. Mötəzililər isə ənənəçilərin onların baxışlarını yanlış anladıqlarını və ya düzgün təfsir etmədiklərini düşünürdülər. Sufi təfsiri mahiyyətcə mistik xarakter daşıyırdı və fəlsəfi fikrin ona böyük təsiri olmuşdur. Bununla əlaqədər olaraq, sufilər Quranın açıqca görünən (zahir) və gizlin (batin) olmaqla iki mənası olduğuna inanırdılar. Son olaraq, ət-təfsir əl-işari (işarə və ya təşbehlə şərh) adlı termin halına gələn təfsir metodu Quranın zahiri məna hüdudlarını aşır. Bu təfsirin təmsilçilərinin iddia etdikləri kimi, o ancaq qəlbi Allah tərəfindən açılmış şəxslərdən başqa heç kəsə görünməyən batini mənaları üzə çıxarır. Bu təfsir cərəyanının tərəfdarları öz şərhlərində bəzi səhabələrin təfsirlərinə də əsaslanırdılar.

### Ənənəçilərin rəy əhlinə və təfsir müxtəlifliyinə münasibəti

Fərqli təfsirlərin ortaya çıxması İbn Teymiyyə, Zəhəbi, İbn Kəsir, Süyuti və ənənəvi təfsir metodunu mənimsəmiş digər alimlər tərəfindən kəskin tənqid edildi.

Onlar yalançı yenilikçilər tərəfindən təqdim olunan qeyri-islami, qeyri-ənənəvi, bidətçi yenilik təfsirlərinin Peyğəmbər, səhabə və tabii təfsirlərinin təhrifindən başqa bir şey olmadığına inanırdılar. Beləliklə, onlar əsla ortaq məxrəcə gəlinməsi mümkün olmayan bir mövqedən təfsir müxtəlifliyini ciddi tənqid etməyə başladılar. Eyni zamanda ənənəvi təfsir üslubunu mənimsəmiş alimlər müsəlmanların yalnız ənənəvi təfsir əsərləri yazmalı və oxumalı olduqları fikrini müdafiə edərək, ərəb dilinin düzgün istifadəsindən və məsələləri əsaslandırmadan məhrum olmaları səbəbindən rəy əhlinə qarşı çıxdılar. Onlar öz baxışlarını əsaslandırmaq üçün Quran, hədis, səhabə və onların xələfləri tabiilərdən nəql edilən məlumatlar daxil olmaqla dörd fərqli mənbədən istifadə etdilər.

Təfsirə ənənəvi yanaşma metodunu müdafiə edən bəzi alimlər isə Həzrət Peyğəmbərin hədisləri olmadan Quranın anlaşılmayacağını bəyan edirdilər. Onların fikrincə, Quranın sadəcə ənənəvi yanaşmaya görə şərhi və onu anlamaq üçün əqli mülahizəyə qarşı çıxılması üçün ənənəviçilərin hər hansı bir tutarlı dəlili ola bilməz.

Əbu Hamid əl-Qəzali, İbn Ətiyyə, əl-Qurtubi, Əbu Həyyan kimi bəzi hüquqşünaslar, qrammatiklər və ilahiyyatçılar bilavasitə opponentlərinin istifadə etdikləri mənbələrə müraciət edərək bu yanaşmaya qarşı çıxdılar. Ənənəçilərin “Nəhl” surəsinin 44-cü ayəsinə istinad etmələrinə cavab olaraq İbn Ətiyyə Quranı təfsir etmə səlahiyyəti verilmiş olmasına rəğmən Həzrət Peyğəmbərin öz dövrünün ehtiyacları və həmin dövrün insanlarına görə şərh verməsini xatırlatdı.Vəfatından sonra Peyğəmbərin təfsirindəki ümumiləşdirilmiş məsələlər şərh edilərkən zaman və məkan amilinə və daha çox əqli mühakiməyə diqqət yetirilməsinin vacib olduğunu vurğuladı. Bu məntiqi müddəanın davamı olaraq bu qəbildən cəhdin sxolastik mühakiməyə (rəyə) müraciəti zəruri edəcəyini də qeyd etmək lazımdır. Ancaq təfsirin əsas qaydalarının tətbiq ediləcəyi təqdirdə buna icazə verilməsi mümkün sayıla bilər. Təfsirdə rəydən istifadə

edilməsi fikrinə tərəfdar çıxanlar öz mövqelərini əsaslandırmaq üçün Qurani-Kərimə də müraciət etmişdirlər. Rəyə müracət etmək fikrinin tərəfdarları həmçinin Həzrət Peyğəmbərin öz ardıcıllarını açıq-aydın ictihada təşviq etdiyi məşhur bir hədisə də istinad edirdilər: *"Hər kim olursa olsun, verdiyi hökmlə bağlı ictihadında doğru qərar verərsə, iki savab qazanar. Yanlış qərar verərsə, yalnız bir savab qazanar"*.[9]

Ənənəçilər və ilahiyyatçı hüquqşünaslar arasında bu mübahisələrin nəticəsi olaraq klassik təfsir iki əsas qola bölündü: "ət-təfsir bil-mə'sur" ("rəvayət əsaslı təfsir") və "ət-təfsir birrə'y" ("dirayət təfsiri"). Rəvayət kəlməsi "xəbər vermək" və ya "rəvayət etmək" mənasına gələn "rəva" feilindən düzəlmiş məsdərdir. "Rəva" feili eyni zamanda "ötürmək", "bildirmək", "keçmək" və sair mənaları verir. Bu səbəbdən də "mə'sur" sözü "ötürülmüş" və ya "təslim edilmiş" mənalarını ifadə edir.

Ümumiyyətlə, rəvayət əsaslı təfsir Peyğəmbər (*Ona Allahın xeyir-duası və salamı olsun!*), səhabə və tabiilər tərəfindən ortaya qoyulmuş Quran təfsirləri olaraq anlaşılır. "Rəy" kəlməsi "fikir", "baxış", "inanc", mənalarını verən bir məsdərdir. Tətbiq baxımından ağıldan istifadə edərək Allahın kəlamını anlamaq və Quranı təfsir etmək üçün müraciət edilən sərbəst mühakiməyə əsaslanır. Rəy, adətən, mükəmməl ərəb dili biliyinə və "ər-rə'-yul-məhmud" və yaxud "əl-məmduh" (tərifəlayiq) və bir-rə'-yil-məzmum" (töhmətəlayiq) olmaqla iki yerə ayrılmış təfsir məsələsində ortaq fikir birliyinə gəlinmiş prinsiplərin tətbiqini əsas alır.

## Üçüncü fəsil
## **Hicri 3-cü və 4-cü əsrlərdə təfsir**

### Anlayışlar və təriflər

Yuxarıda təqdim olunan təsnifatdan da göründüyü kimi, əslində mövcud bölgü düzgün hesab edilə bilməz. Çünki daha

sonra aydınlaşacağı kimi, rəyin ənənəvi rəvayətə əsaslanan rəvayət təfsiri ilə uzlaşacağı müəyyən bir mərhələnin mövcud olması dəqiq təsnifata imkan vermir.

"Mə'sur" kəlməsi "əsəra" feilindən düzəlmiş keçmiş zaman feili sifətidir. Ərəb dilinin leksikasına əsasən, "əsəra" feili "iz buraxmaq", "işarə etmək" "çatdırmaq", "ötürmək", "rəvayət vermək" kimi müxtəlif mənalar daşıyır. Həmçinin ərəb dilində "hədis" termini hərfi mənada "köhnə" sözünün antonimi olan "yeni" mənasına gəlir. Xəbər, hekayə, ünsiyyət, söhbət, danışıq kimi, bir sözlə, xəbərlər mənasında işlənilir. Quranda bu kəlmə daha çox "hekayə", "ünsiyyət" və "söhbət" sözlərinin linqvistik mənasını ifadə etmək üçün istifadə edilir. Həzrət Peyğəmbər "hədis" terminini onun linqvistik mənasında, Quranda verildiyi kimi istifadə etmişdir.

"Fəthul-bəri" adlı əsərdə qeyd olunmuş bir hədisdə deyilir: *"Ən yaxşı hədis Allahın kitabıdır"*. Mühəddislər (hədis alimləri) "hədis" terminini Həzrət Peyğəmbərin əməlləri, sözləri, səssiz təsdiqi, onun "sifət"inin (fiziki görünüşünün) təsviri ilə bağlı nəql olunanları ifadə etmək üçün istifadə etmişdirlər. "Sünnə"-nin hərfi mənası yaxşı və ya pis olmasına rəğmən sözün tam mənasında yol, qayda və davranış mənasını ehtiva edir. Quranda da bu kəlmə sözün hərfi mənasına işarə etmək məqsədilə həmin mənada işlənir. Lakin "hədis" və "sünnə" terminləri Peyğəmbərin səhabələri tərəfindən bir-birinin yerinə sinonim kimi istifadə edilmişdir.

Müsəlmanlar Həzrət Peyğəmbərin Quranı insanlara öz mühakimələrinə əsasən deyil, mələk Cəbrayıl tərəfindən Allahın ona vəhy etdiyi sözlərlə çatdırmaq əmrini yerinə yetirdiyinə inanırlar. Bir çox yerdə Həzrət Peyğəmbərin Quranın ilk müfəssiri olmasının vacibliyini bildirən ayələr vardır. Fikrimizcə, İbn Teymiyyənin bu fikri dəstəkləmək üçün qeyd etdiyi **"Sənə də**

**Quranı nazil etdik ki, insanlara, onlara göndəriləni açıqlayasan…”** məalındakı ayə Həzrət Peyğəmbərin bütün Quranı şərh etdiyi mənasına gəlmir.

Qeyd olunan ayə mütəşabeh ayələrin izahı ilə yanaşı, yalnız Sünnə vasitəsilə anlaşılması mümkün olan, ərəb dilini bilməklə başa düşülməyən namaz, oruc, həcc və s. məsələlərə dair ayələrin izahını nəzərdə tutur. Quran və hədislərdə müsəlmanlar Qurani-Kərimi başa düşməyin yolu olaraq dəfələrlə yazılanları düzgün anlamağa təşviq edilirlər. Məsələn, “Sad” surəsinin 29-cu ayəsində “(Ya Peyğəmbər! Bu Quran) **sənə nazil etdiyimiz mübarək** (xeyir-bərəkətli) **bir Kitabdır ki,** (insanlar) **onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də** (ondan) **ibrət alsınlar!”** buyurulmuşdur.

## Dördüncü fəsil
## **Səhabələrinin təfsir və fitvaları**

Həzrət Peyğəmbərin (*Ona Allahın xeyir-duası və salamı olsun!*) vəfatından sonra səhabələr Quranın ən mötəbər şərhçiləri oldular. Onlar öz təfsirlərində ərəb dilinin qrammatikası ilə yanaşı, Həzrət Peyğəmbərin bəyanları və öz ictihadları kimi mənbələrdən istifadə edirdilər. Qurani-Kərimin nazil olduğu şərait, bu və ya digər ayənin nazil olma səbəbi və yeri barədə də məlumata malik idilər. Şübhəsiz, mövcud şərhçilər arasında bu sahədə ilk dörd xəlifə: Əbu Bəkr, Ömər, Osman və Əli xüsusilə fərqlənirdilər. Ərəb dilində “sahib” kəlməsi bir çox məna kəsb edən, lakin hamısı “bir yerdə olmaq”, “söhbət etmək” və “dost olmaq” məfhumlarını ifadə edən “sahibə” feilindən düzəlmişdir.

İslam tarixşünaslığında sahib deyilincə Peyğəmbərin (*Ona Allahın xeyir-duası və salamı olsun!*) müasiri, onun peyğəmbərliyinə inanan, onunla yoldaşlıq edən və vəfat edən şəxs anlaşılır. Ənənəçilər və üsulşünaslar bu terminə öz xüsusi təriflərini vermişdirlər. Belə ki, ənənəçilərə görə, sahib və ya səhabə peyğəmbərlik ve-

rildikdən Məhəmməd Peyğəmbəri bilavasitə həyatda (yuxuda deyil) ikən görüb mömin olan və inanclı olaraq vəfat edən şəxsdir.[10] Üsulşünasların (usuliyyun) fikrincə, səhabi yalnız Peyğəmbəri görən deyil, daha geniş mənada, onun peyğəmbərliyini etiraf edən, müasiri olan, uzun müddət onu müşaiyət edən, həmin dövrdə onunla tez-tez görüşüb, ondan nələrsə öyrənən şəxsdir.[11] Ənənəçilərdən fərqli olaraq, üsulşünaslar Həzrət Peyğəmbəri Məkkədə ilk və son həcc ziyarəti zamanı yalnız bir dəfə görənləri səhabə dərəcəsinə aid etməmişdirlər. Bununla da ənənəçilərin bənzər statusa sahib olduqlarını düşündükləri bir çox kimsə səhabə kateqoriyasına daxil edilməmişdir.

Səhabələr istər Peyğəmbərin (*Ona Allahın xeyir-duası və salamı olsun!*) həyatda olduğu, istərsə də vəfatından sonrakı dövrdə Quran və hədislərin təfsirində dəfələrlə öz mülahizələrinə əsaslanmışdırlar. Onların bu cəhdi səhabənin şəxsi rəy metodunu mənimsəyən səhabə (bir səhabənin düşüncəsi, sözü və ya fitvası) olması şəklində tanınmağa başlamış və bu rəylərin səlahiyyəti daim müsəlman alimlərinin mübahisə obyekti olmuşdur.[12] Müsəlmanlara elm öyrənməyi və öyrətməyi hökm edən çox sayda Quran ayələri və hədislər mövcuddur. Məhz bu hökmdən ilhama gələn səhabələr təfsirə başlamışdırlar. Lakin onlar Quranı bütünlükə təfsir etməmiş və mövcud çalışmalarını özlərindən sonra toplu şəklində buraxmamışdırlar.

İslam alimləri səhabələrin təfsirinin səlahiyyətinə münasibətləri baxımından iki qrupa bölünürlər. İmam Malik, İmam Əhməd ibn Hənbəl, İbn Teymiyyə və onun tələbəsi İbn Qayyim səhabələrin şərhlərini vacib hesab edən alimlərdəndir. Bu alimlər öz fikirlərini daha çox səhabələrin fəzilətləri və dürüstlükləri, onların Quran və hədislərdə təriflənmələri, Həzrət Peyğəmbərə Quranın vəhy edilməsinə şahid olmaları ilə əsaslandırırdılar. Bundan başqa, səhabələr Quran dilinin də mükəmməl biliciləri idilər. Qəzali, İbn Həzm, Əbu Həyyan isə səhabələrin təfsirinin çox da əhəmiyyət daşımadığını düşünənlər sırasına daxil idilər. Bu alimlərin fikirlərinin əsasını səhabələrin ortaya qoy-

duqları təfsirlərin həyatda tətbiqi əsnasında uzlaşılması çətin olan bəzi məqamların mövcud olması təşkil edirdi. Bununla da uzlaşılması çətin olan fərqlilikləri nəzərə almaqla həyatda tətbiq etməli olacaqları üçün səhabə təfsirlərinin vacib olaraq qəbul edilməsinin müsəlmanlarda çaşqınlıq yarada, məsələləri daha tərəddüdlü və çıxılmaz hala gətirə biləcəyi nəzərdə tuturdu. Buna baxmayaraq, səhabələrin təfsirləri Quranın başa düşülməsində böyük əhəmiyyət kəsb edir, onların Peyğəmbərə (*Ona Allahın xeyir-duası və salamı olsun!*) yaxınlığı və Quran bilikləri baxımından dəyərlidir.

## Beşinci fəsil
## **Tabiilərin təfsir və fitvaları**

### Tabii təfsirlərinin hökmü ətrafında mübahisə

Tabii təfsirlərinin hüquqi cəhətdən vacib olub-olmaması ilə bağlı fikir ayrılıqları mövcuddur. Lakin bu məsələnin müzakirəsinə həsr olunmuş tarixi materiallar səhabələrin təfsiri ilə bağlı mənbələr qədər çoxluq təşkil etmir. Çünki səhabələrin təfsirinin vacibliyini qəbul etməyən Qəzali, İbn Həzm və başqa alimlər tabiilərin şərhlərinin hökmünü müzakirə etməyə maraq göstərmirdilər. Ancaq bununla yanaşı, əhli-sünnə alimlərinin əksəriyyəti tabii təfsirinin qəti dəlil (hüccət) hesab edilməsinin dini hökmü üzərində ittifaq edirdilər.

Ərəb dilində xarici cəm formasında işlədilən "təbi'un" sözünün təki olan "təbi'un" kəlməsi "izləmək", "ardınca getmək" mənasını verən "təbə'a" feilindən düzəlmiş indiki zaman feili sifətidir. Dolayısı ilə, tabii ömrünü başa vurub getmiş şəxs və ya nəsildən sonra gələn şəxs və yaxud nəsil mənasına ifadə edir. Əvvəlki şəxsi və ya nəsli izləyən və yaxud əvəz edən, davamçı deməkdir. Sözün əsas lüğəvi mənasında isə, tabii Məhəmməd peyğəmbərin müasiri olmamış (onu görməmiş), lakin Peyğəmbərin hər hansı bir səhabəsinin müasiri olmuş (onunla görüş-

müş) və müsəlman kimi ölən şəxsi bildirir.[13] Tabiilər nəsli İslamda ikinci nəsil və səhabələrin ən bəyənilən xələfləri olaraq qəbul edilir.

Əhli-sünnə alimlərindən Əbu Hənifə tabii nəslindən hər hansı birinin təfsirinin və ya fitvasının hökmünün vacib olmadığına dair fikir bəyan etmişdir. Sadəcə bir tabiinin təfsirinin və ya fitvasının sünni alimlər arasında vacib olaraq qəbul edilib edilməyəcəyi xüsusunda Əbu Hənifə tabiilərin şərhinin və ortaya qoyduqları dini hökmlərin vacib olmadığına inanırdı. Bu fikrin səbəbi ümumən tabiilərin Peyğəmbəri görməmələri və ya şahidlik etməmiş olmaları idi. İbn Teymiyyə də bu fikri təsdiqləyirdi. Əbu Həyyan isə tabiilərin təfsirinin qəbul edilməsini əqli və ya elmi intihar hesab edirdi.[14] Bəzi qeydlərə görə, Peyğəmbərə ən yaxın nəsil olan tabiilərin təfsirinin vacib olduğunu qəbul edən ikinci qrupa Əhməd ibn Hənbəl və maliki üsulşünasları daxil idilər.[15] Bununla belə, müasir hənbəli üsulşünası Abdullah ibn Mühsin ət-Türkiyə görə, hənbəli üsulşünaslarının əksəriyyətinin Əhməd ibn Hənbəldən qalan ən mötəbər mənbə olduğuna inandıqları əsərdə tabiilərin təfsirinin vacib hökmü olmadığını bəyan edən ifadələrə yer verilmişdir.

### Quranın təfsirinə tabiilər tərəfindən müxtəlif yanaşmalar

Tabiilər arasında fiqh, ilahiyyat, Quranda adı keçən tarixi şəxsiyyətlər, dilçilik, Quran ifadələri daxil olmaqla beş elm sahəsinə dair fikir ayrılıqları mövcud olmuşdur. Fiqh sahəsində ayələrin hüquqi mənası ilə bağlı fikir ayrılıqları həmin ayələrin fərqli anlaşılmasından, bəhs edilən məsələlər barədə Peyğəmbərin bəyanlarını ehtiva edən məlumatın azlığından xəbərsiz olmaqdan və ya zəif hədislərə müraciət etməkdən irəli gələ bilirdi. Mövzuya dair məlumatın azlığına dair nümunə olaraq "Bəqərə" surəsinin 196-cı ayəsi göstərilə bilər: **"Allahdan ötrü həcc və ümrə** (kiçik həcc) **əməllərini tam yerinə yetirin, əgər arada sizə maneçilik olarsa,** (sizə) **müyəssər olan bir qurbanlıq göndərin, qurbanlıq öz yerinə** (Minaya) **çatıncaya qədər**

**başınızı qırxdırmayın”**.[16] Buxari və Müslimin də üzərində ittifaq etdiyi Peyğəmbərdən nəql olunan hədisdə həcc və ya ümrə ziyarətini yerinə yetirə bilməyən müsəlmanın neçə gün oruc tutmasının və ya neçə yoxsulu doyurmasının vacib olduğu müəyyən edilmişdir. Lakin tabiilərin oruc tutulması vacib olan gün və doyurulacaq yoxsulların sayı ilə bağlı fərqli rəqəmlər verdiklərini görmək mümkündür.

Bundan başqa, Qurani-Kərimdə əsl adları verilməyən müxtəlif tarixi şəxsiyyətlərdən də bəhs olunur. Buna baxmayaraq, tabiilər bu və ya digər şəkildə (ehtimal ki, Tövrata və Əhdi-Cədidə istinad etməklə) onları müəyyən etməyə çalışmış və kimlikləri barədə fərqli mülahizələr irəli sürmüşdürlər. Misal olaraq, “Bəqərə” surəsinin 246-cı ayəsini göstərmək olar: “(Ya Rəsulum!) **Musadan sonra bir qrup** (tanınmış) **İsrail övladının başına gələnləri görmədinmi? Onlar öz peyğəmbərinə: “Bizə bir hökmdar göndər ki,...”**. Qurani-Kərimdə bəhs edilən İsrail oğullarına mənsub peyğəmbərin adı qeyd olunmur, lakin tabiilərin bəziləri onun şəxsiyyətini müəyyənləşdirməyə çalışmışdırlar.

İlahiyyatda tabiilərin Quran ayələrini özlərinə məxsus şəkildə anladıqları və onu səhabələrin hədislərinə və ya şərhlərinə əsaslanmadan təfsir etdikləri qeyd olunur. “Nisa” surəsinin 159-cu ayəsini buna misal göstərə bilərik: **“Kitab əhlindən** (yəhudilərdən və xaçpərəstlərdən) **elə bir kəs olmaz ki, ölümündən əvvəl** (can verdiyi zaman) **ona** (İsaya) **iman gətirməsin...”**. Ayədə “ölümündən əvvəl” (“qablə mautihi”) ifadəsindəki “–hi” bitişən əvəzliyi kitab əhlindən kiməsə və ya Həzrət İsaya işarə edə bilər. Əgər “hi” əvəzliyi kitab əhlindən olan kiməsə işarə edərsə, ayə “Kitab əhlindən hər kəs ölməmişdən əvvəl Həzrət İsanın Allahın göndərdiyi peyğəmbər olduğuna iman gətirməlidir” mənasını daşıyar. Əgər “hi” əvəzliyi Həzrət İsaya işarə edərsə, ayə “Kitab əhlindən elə bir kəs yoxdur ki, İsanın ölümündən əvvəl ona iman gətirməsin” fikrini ifadə edər.

Dilçilik elmi tabiilərin qrammatik biliklərinə görə fərqli şəkildə başa düşdükləri söz və anlayışları ayrı-ayrı araşdırır. Onlar xarici dillərdən alındığı iddia edilən Quranda keçən bəzi sözlərin mənşəyi barədə də fərqli fikirlərə malik olmuşdurlar. Misal üçün, “İxlas” surəsinin ikinci ayəsindəki “əs-saməd” sözü müxtəlif variantlarda şərh olunmuşdur: Zeyd bin Asləm bu kəlməni “usta”, Qatadə “yaratdıqlarından daha uzun müddət yaşayan”, İkrimə “tullantıları xaric etməyən və ya qidalanmağa ehtiyacı olmayan”[17], Rabi ibn Ənəs “doğmayan və doğulmayan”[18], nəhayət, Mücahid, Səid ibn Cübeyr, Suddi və Dəhhək “parıldayan işıq”[19] kimi şərh etmişdirlər. Digər bir misal olaraq da “Tin” surəsinin **“And olsun əncirə və zeytuna”** ayəsindəki “əz-zəytun” kəlməsini göstərmək mümkündür. Kəb əl-Əhbər və Qatadə həmin sözün Qüdsdəki müqəddəs məscidə işarə etdiyini, Mücahid və İkrimə isə onun hər kəs tərəfindən bilinən zeytun olduğunu ifadə edirlər.[20]

Tabiilər bu ayələrin mənasından bəhs edən hədislərdən məlumatsız olduqlarına və yaxud çətin anlaşılan ifadələrə dair hədisin mövcud olmadığına görə onları şəxsi mühakimə və ya məlumatlarına əsaslanaraq şərh etmişdirlər. Bu da, Quranda keçən ifadələrin bir-birindən terminlərlə izah edilməsinə səbəb olmuşdur. Belə ki, “Hicr” surəsinin 87-ci ayəsindəki “(Ya Rəsulum!) **Biz sənə** (hər namazda oxunub) **təkrarlanan yeddi ayəni** (Fatihə surəsini) **və** (böyük) **əzəmətli Quranı verdik.”** bəyanı da müxtəlif cür şərh edilmişdir. İbn Abbas və tələbələri Mücahid, Səid bin Cübeyr və Dəhhak bu ayədə “təkrarlanan yeddi” ifadəsində Quranın yeddi ən uzun surəsinin nəzərdə tutulduğunu qeyd etmişdirlər. Digər tərəfdən, Həsən əl-Bəsriyə, Qatadəyə və Mücahidə (əvvəlcə ilkin şərhi mənimsəməsinə rəğmən daha sonra fikir dəyişdirmişdir) görə, “təkrarlanan yeddi” ifadəsi yalnız Quranın ilk surəsinə – “Fatihə” surəsinə işarə edir. Onlar bu şərhi dəstəkləmək üçün Buxarinin toplusundan bir hədisə istinad etmiş, daha əvvəl qeyd olunan fikrin tərəfdarları isə heç bir hədisə əsaslanmamışdırlar.

**Tabiilərin təfsirinin əsas xüsusiyyətləri, mənbələri və metodologiyası**

Mücahid, Səid ibn Cübeyr və bəzi digər tabiilərin təfsir yazdıqlarına dair müəyyən iddiaların olmasına baxmayaraq, onların ortaya qoyduqları mətnləri Quranın bütün ayələrini əhatə etməmişdir. Ümumən ifadə edilərsə, tabiilərin təfsiri anlaşılan və aydın idi. Onlar Quran mətnini açıqlamaq üçün poeziyaya çox az istinad etmişdirlər. Qrammatik təhlillər aparmasalar da, Qatadə kimi bir neçə alim bəzi ayələri bəlağət və linqvistik cəhətdən araşdırmış, çox sayda əhatə dairəsi və qayəsi bu tədqiqatın məqsədindən kənara çıxan müstəqil sözün izahını vermişdirlər.[21]

Tabiilər Quranı təfsir edərkən ilk növbədə üç mənbədən istifadə etmişdirlər. Təbii ki, bunlardan birincisi Quran idi. Tabii nəslinin təfsirlərində geniş şəkildə müraciət etdikləri ikinci mənbə səhabələrin fikirləri idi. Üçüncü mənbə isə şəxsi mühakimələridən ibarət olurdu. Onların, xüsusilə İbn Abbasın tələbələrinin, Quranı şərh edərkən tez-tez müraciət etdikləri digər bir mənbə isə israiliyyət (yəhudi qissələri) olmuşdur.

Müsəlman alimləri tabiilərin təfsirinin vacib hökmü məsələsinə yanaşmada iki qrupa bölünürlər. Bu alimlərin əksəriyyəti Həzrət Peyğəmbəri şəxsən görmədikləri və ya vəhyə şahidlik etmədikləri üçün tabii təfsirlərinin hüccət olmadığına inanırlar.

Alimlərin başqa bir qrupu isə tabii təfsirinin hökmlərinin vacib olduğuna inanırlar. Onların fikrincə, tabiilər Quranı təfsir edərkən dərs aldıqları müəllimləri səhabələrdən əldə etdikləri məlumata əsaslandıqlarına görə onların təfsirləri də hökm baxımından səhabənin təfsirləri ilə eyni səviyyədə hüccət olaraq qəbul edilə bilər.

Bununla birlikdə, nəticə etibarilə tabii təfsirinin hökmlərinin vacibliyi məsələsi ilə bağlı hər iki tərəfin istinad etdikləri dəlillər sxolastik əsasa malik deyildir. Daha çox təfsir müəllifi-

nin Həzrət Peyğəmbərin həyatda olduğu dövrdə yaşaması və onunla əlaqəyə malik şəxs olub-olmaması meyarı əsas alınmaqla nəticəyə varılmışdır.

## Altıncı Fəsil
## **İctihada əsaslanan təfsir: Rəy (dirayət) təfsiri**

Ərəb dili lüğətlərində "rə'y" sözü feildən düzəlmiş isim olaraq verilir. "Gözlə görmək", "ağılla görmək", "əks etdirmək", "güman etmək" kimi müxtəlif mənalara malikdir.[22] İbn Hişam əl-Ənsari və İbn Malik kimi müsəlman qrammatik və dilçilərinə görə, "ra'ə" sözü "rə'y" sözündən düzəlmiş və özündən sonra bir və ya iki tamamlıq tələb edən təsirli feildir. Özündən sonra bir tamamlıq tələb etdikdə, "gözlə görmək" mənası daşıyır. Məsələn, "ra'eytu Zəyd" sözün həqiqi mənasında "Mən Zeydi öz gözlərimlə gördüm" deməkdir. Özündən sonra iki tamamlıq tələb etdikdə, "ağılla görmək" və ya "güman etmək" mənası daşıyır.[23] Və yaxud, "ra'eytu Allah Əkbər min kulli şəy" cümləsi hərfi mənada "Mən Allahın hər şeydən daha böyük olduğunu gördüm" və ya "Mən Allahın hər şeydən daha böyük olduğuna inandım" kimi tərcümə olunur. Bu nümunədə "ra'ə" feili özündən sonra iki tamamlıq tələb etdiyi üçün "inanmaq" mənasını ifadə edir.

Quranda "rəy" kəlməsinin eyni leksik mənanı ifadə etmək üçün müxtəlif formalarda (keçmiş və indiki zamanda, məsdər kimi) işləndiyini görürük. Məsələn, "Ənam" surəsinin 76-cı ayəsində **"Gecənin qaranlığı onu bürüdüyü zaman o, bir ulduz gördü,...."** dedikdə, "ra'ə" kəlməsi "gözlə baxmaq" mənasını ifadə edir.[24] Başqa bir misalda, "Ənfal" surəsinin 48-ci ayəsində, **"...Mən sizin görmədiklərinizi** (möminlərin köməyinə gələn mələkləri) **görürəm...."** dedikdə isə "rəy" kəlməsi "iç üzünü anlamaq" mənası daşıyır. Hədislərdə "rəy"in biri "şəxsi

fikir", digəri isə "ictihad"ın ekvivalenti (səy göstərmə, özünü məcbur etmə) olmaqla iki mənada istifadə edildiyinə şahid oluruq. Səhabələr dövründə də "rəy" sözü iki fərqli məna: birincisi, "Qurandan və Peyğəmbər (*Ona Allahın xeyir-duası və salamı olsun!*) hədislərindən aydın məlumat əldə etmək mümkün olmadıqda, müstəqil şəxsi düşüncəni ifadə etmək" və ikincisi, "qiyas" (analoji nəticə, ölçü) kəlməsi ilə eyni məna ifadə etmişdir.

Tabiilər dövründə İslamda müxtəlif dini-siyasi qrupların yaranması ilə "rəy" kəlməsi "məzhəb və ya bid'ə təfsiri" mənası da daşımağa başladı. Bu səbəblə dirayət təfsiri Peyğəmbər və səhabə ənənələrinə əsaslanmadan Quranın şərh edilməsi mənasında işlənməyə başladı. Beləliklə, "rəy" təfsirlə bağlı bir növ aşağılayıcı kəlməyə çevrildi. Ömər ibn Xəttabın nəvəsi Übeydulladan Mədinənin ən görkəmli tabii təfsirçilərindən Zeyd ibn Əsləm barədə fikri soruşulduqda belə cavab vermişdir: "Quranı öz şəxsi fikirləri ilə şərh etməsindən başqa onda heç bir səhv görmürəm".[25] Ümumiyyətlə, yuxarıda qeyd olunan fikirlərə baxmayaraq, "rəy" termini "ictihad", "şəxsi fikir", "qiyas" və "inam (etiqad)" mənalarında işlənilmişdir.

Dirayət təfsirindən (ət-təfsir bir-rə'y) hədisə istinad etmədən Quranı təfsir etmək məqsədilə zəka (əqli fəaliyyət) sayəsində və mükəmməl ərəb dili biliyinə əsaslanaraq təfsir prinsiplərini tətbiq etməklə Allahın kəlamını başa düşmək üçün istifadə edilir.[26] Bu tərifə uyğun gələn Quran şərhinə "ət-təfsir bir-rə'yil-məhmud" və ya "əl-məmduh", yəni "tərifəlayiq təfsir" deyilir. Mövcud tərifə uyğun gəlməyən Quran təfsiri isə "ət-təfsir bir-rə'yil-məzmum", yəni "töhmətəlayiq təfsir" adlanır.[27] Bundan da anlaşıdığı kimi, "ət-təfsir bir-rə'yil-məzmum" təfsir mənbələri, şəriət haqqında lazımi məlumat və mükəmməl ərəb dili biliyi olmadan edilən təfsir kimi başa düşülür. Bu səbəbdən də dirayət təfsiri (ət-təfsir bir-rə'y) iki kateqoriyaya bölünür: "ət-təfsir bir-rə'yil-məhmud" ("tərifəlayiq təfsir") və "ət-təf-

sir bir-rə'yil-məzmum" ("töhmətəlayiq təfsir"). Bu kontekstdə məşhur əhli-sünnə alimlərindən Təbəri, Qəzali və İbn Teymiyyənin dirayət (rəy) təfsirinə qarşı çıxdıqlarını qeyd edə bilərik.

Təbəri Quranı təfsir etməyin ancaq dörd üsulunu: 1) yalnız Peyğəmbərimizin (*Ona Allahın xeyir-duası və salamı olsun!*) verdiyi izah ilə başa düşülə biləcək bəzi ayələrin təfsiri; 2) mənasının Allahdan başqa kimsənin bilmədiyi bəzi ayələrin şərhi; 3) şərhi zamanı cahilliyə yol verilməsinin bağışlanmaz və üzrlü hesab edilməyəcəyi bir sıra ayələrin şərhini; 4) mütləq dərin elmi bilik tələb edən bəzi ayələrin şərhinin anlaşılması şəklində edilən təfsiri vacib sayırdı.[28] Qəzali Quranın ancaq ərəb dilinin qrammatikasına müraciət etməklə hərfi tərcümə vasitəsilə ehtiva etdiyi gizli mənaların yanlış anlaşıla biləcəyi qənaətini daşıyırdı. Bununla birlikdə, ərəb dilinin incəliklərinə vaqif olmayan bir kimsənin həmin mənaları şərh etmək üçün şəxsi fikrinə əsaslanması istisna deyil. Məhz bu səbəbdən də Qəzaliyə görə, Quranın hərfi və həqiqi mənasını anlamaq və şərh etmək üçün hədislərə müraciət etmək zərurəti hasil olurdu. İbn Teymiyyə isə "ət-təfsir bir-rə'yil-məhmud"a ("tərifəlayiq təfsir"ə) tərəfdar çıxırmış kimi görünsə də Qurani-Kərimi təfsir edərkən səhabənin və tabiilərin tətbiq etdikləri metodlardan fərqli hər hansı bir üsula müraciət edilməsinin yanlış olduğunu düşünürdü.

Həzrət Peyğəmbərin yaşadığı Əsri-Səadət və ilk iki xəlifə Əbu Bəkr və Ömərin xilafəti dövründə "rəy" kəlməsi şəxsi fikir və müqayisə olaraq anlaşıldığı üçün heç bir mənfi məna daşımırdı. Üçüncü xəlifə Osmanın öldürülməsinin ardından müsəlmanlar arasında daxili parçalanma nəticəsində Həzrət Əbu Bəkr və Həzrət Ömərin tərəfdarları da daxil olmaqla, hər qrup öz baxışlarını əsaslandırmaq üçün mənbə olaraq Qurandan istifadə etməyə başlamışdır. Tarixin gedişatı ilə dini və ya siyasi fikir ayrılıqlarının nəticəsi olaraq müxtəlif düşüncə məktəbləri inkişaf etmişdir. Təəssüf ki, nəticə etibarilə təfsir də mübahisələrin predmetinə çevrilmiş və bu durumda elmi obyektivliyin itirilməsi labüd olmuşdur.

Rəy metodunun tərəfdarları və əleyhdarlarının öz mövqelərini əsaslandırmaq üçün irəli sürdükləri dəlillərə tənqidi nəzər saldıqda, hər ikisinin öz mövqeyni müdafiə etmək üçün ortaya qoyduğu bəzi iddiaların daha çox əsaslandırmaya ehtiyacı, digərlərinin isə məsələ ilə əlaqəsinin zəif olduğu ortaya çıxır. Məsələn, rəyin əleyhdarları onun qadağan edilməsini əsaslandırmaq üçün "Nəhl" surəsinin 44-cü ayəsini misal gətirirlər: **"Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni** (hökmləri, halal-haramı) **izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr!"**. Şəxsi qənaətimizə görə, bu misal praktiki cəhətdən zəif əsaslandırmadır. Çünki Həzrət Peyğəmbər nəinki bütövlükdə Quranı, hətta onun böyük bir hissəsini belə təfsir etməmişdir. Bu səbəbdən də səhabələr bəzi ayələri təfsir edərkən daha çox şəxsi mülahizələrini əsas almışdırlar. Ancaq buna rəğmən mötəbər mənbələrə müraciət etmək və həmin mənbələrdən səhih məlumat əldə etmək qəbilindən müəyyən şərtlər daxilində alimlərin əksəriyyəti üçün "ət-təfsir bir-rə'yil-məhmud" ("tərifəlayiq təfsir") qrupuna aid olan dirayət təfsiri caiz sayıla bilər.

## Yeddinci fəsil
## **Quranın təfsirinə müasir yanaşmalar**

1750-ci ildən XX əsrin ortalarına qədərki dövrdə İslam dünyasının işğalı və tənəzzülü zaman keçdikcə özünü daha bariz şəkildə göstərdi. Qərbin mədəni və siyasi təsiri altında aşınmağa məruz qalan mədəniyyət sosial, siyasi, təhsil, mədəni və iqtisadi baxımdan bütün sahələrdə müsəlmanların həyatına dərindən nüfuz etdi. Bu dağıdıcı təsirin qarşısını almaq məqsədilə Hindistan və Misir kimi ölkələrdə İslam kimliyini bərpa etmək və gücləndirmək istiqamətində müxtəlif dirçəliş ideyaları və islahat hərəkatları ortaya çıxdı. Sözügedən hərəkatlardan bəziləri məqsədlərinə çatmaq üçün rasional, əqli və elmi yanaşmaların tətbiqi yolu ilə İslamı həyat tərzi kimi şərh etməyə çalışırdılar.

Beləliklə, ümumən İslam ədəbiyyatında, xüsusilə də təfsirdə, intellektual, elmi, ritorik, filoloji, ənənəvi və tarixi olmaqla yeni cərəyanlar meydana gəldi.

Müsəlmanları canlandırmaq məqsədini daşıyan intellektual yanaşma tərəfdarları Quranın ilk növbədə bəşəriyyəti hidayət etmək üçün nazil edildiyi, insanlara dünya və axirətdə xoşbəxtliyə çatmağın yollarını göstərdiyinin dərk edilməsinə çalışırdılar. Çünki Quran məhz bəşəriyyətin bütün problemlərini həll etmək, insanların mənəvi və dünyəvi ehtiyaclarını qarşılamaq üçün nazil edilmişdir. Bu yanaşmaya görə, müsəlmanlar sosial, iqtisadi, siyasi məsələlərin, hətta gündəlik həyatda qarşılaşdıqları problemlərin həllini yalnız Quranda axtarmalıdırlar. Bir sözlə, müsəlmanlar müasir dünyadakı problemlərini necə dərk etmələrindən asılı olaraq Quranı rəhbər tutulacaq hidayət kitabı kimi qəbul etməlidirlər.

Bu cərəyanın ideyalarını əks etdirən ən məşhur kitab "Mənar təfsiri" olaraq tanınan "Təfsirul-Quranil-hakim" adlı iri həcmli əsərdir. "Mənar təfsiri" İslam Peyğəmbərinin, səhabələrin, tabiilərin təfsirlərini, yəhudi və xristian mənbələrindən bəlağətə aid iqtibasları, həmçinin linqvistik və hüquqi məsələlərə dair mülahizələri ehtiva edir. Ümumiyyətlə, bu əsərin müsəlman dünyası tərəfindən rəğbətlə qarşılandığını qeyd etmək lazımdır.

Çağdaş dünyada baş verən heyrətamiz elmi yeniliklər Quranın ictihad baxımından daha çox müasir elm kontekstində dərk edilməsi zərurətini ortaya çıxarmışdır. Bu təmayülü əks etdirən əsərlərdən biri Şeyx Təntavi Cövhərinin (1940-cı ildə vəfat etmişdir) yazdığı "Əl-cəvahir fi-təfsiril-Quranil-Kərim"("Qurani-Kərim təfsirindən incilər") əsəridir. Təntavi Quran təfsirinə elmi yanaşma xüsusunda şəxslərin məsul olduqlarını, ancaq ictihad üçün belə bir cavabdehliyin olmadığı fikrini irəli sürmüşdür. Həmçinin bunu ifadə edərkən elmi yanaşmaya lazımi əhəmiyyət vermədikləri üçün fəqihləri açıq şəkildə tənqid et-

mişdir. Təntavinin sözügedən metodologiyası müasir alimlər tərəfindən birmənalı qarşılanmamış və nəticə etibarilə qəbul edilməmişdir. Sübhi əs-Salih, Cansen və bir sıra başqa alimlər Təntavini elmi mülahizələrə və digər fikirlərə həddindən artıq maraq göstərdiyinə görə tənqid etmişlər və həmçinin əsəri həqiqi təfsir hesab olunmamışdır.[29]

Bəlağət yönümlü yanaşma tərzi bilavasitə təsirli yazma və danışmaq sənəti ilə əlaqəlidir. Başqa sözlə, bu qəbildən yanaşma tərzində ədəbi-sosioloji mülahizələrə daha çox diqqət yetirilir. Seyyid Qütbün Qahirədə nəşr olunmuş səkkiz cildlik "Fi zilalil-Quran" adlı əsəri bu yanaşmanın ən bariz örnəyidir. Seyyid Qütb giriş sözündə müsəlman cəmiyyətinin və bəşəriyyətin problemlərinin həllinin yalnız Quranın öyrədilməsi və tətbiq edilməsi ilə mümkün olacağını qeyd etmişdir. Bu fikrini Quranın bəşəriyyəti ilk növbədə sülhə və səadətə nail olmağa yönləndirmək üçün nazil edilməsi ilə izah etmişdir.[30] "Fi zilalil-Quran" əsərində həmin dövr müsəlmanlarının qarşılaşdıqları sosial problemlərə diqqət yetirildiyi üçün təfsir dünya müsəlmanlarının böyük əksəriyyəti tərəfindən təqdirlə qarşılanmış və qəbul olunmuşdur.

Filoloji yanaşma tərəfdarları ərəb dilində nazil olduğu üçün Quranın ərəb dili vasitəsilə başa düşülməsinin vacibliyini irəli sürürlər. Bu yanaşmaya görə, Quranın surə və ayələrinin xronoloji ardıcıllığı, vəhyin nazil olduğu zaman və məkan şəraitini bilmək vacibdir. Bu cərəyanın ideyalarını əks etdirən tamamlanmış halda olan təfsir yazılmasa da, bu sahədə yarımçıq bir əsər var. Bu ən çox Bintuş-Şati kimi tanınan Aişə bint Məhəmməd Əli Əbdürrəhman əş-Şati[*] adlı müəllif tərəfindən yazılmış "Ət-təfsirul-bəyəni lil-Quranil-Kərim" adlı kitabdır. Mənna əl-Qəttan Bintuş-Şatinin təfsirini təqdirəlayiq təşəbbüs kimi dəyərləndirmişdir. Lakin bu metodun Quran elmlərinin

[*] 1998-ci ildə vəfat etmişdir – tərcüməçinin qeydi.

bəzi aspektləri, o cümlədən Quran qanunları və əsas prinsipləri ilə bağlı möcüzələr baxımından qüsurlu olma ehtimalından da müəyyən narahatlığını vurğulamışdır.[31]

Düzdür, ənənəvi yanaşma daha çox klassik təfsirə və ədəbiyyata əsaslanır, ancaq eyni zamanda müasir dövrün bəzi məsələlərinə də təmas edir. Bu cərəyanın nümayəndələrindən Şeyx Məhəmməd Camaləddin əl-Qasiminin (1866-1914) məşhur "Məhasinut-tə'vil" və Məhəmməd ət-Tahir ibn Aşurun "Təfsirut-təhrir vət-tənvir" əsərlərinin adlarını qeyd etmək olar. Sonuncu əsər məzmun etibarilə əhatəlidir və yanaşma baxımından klassik səciyyə daşıyır. Bu əsəri sözün əsl mənasında ensiklopedik bir mənbə hesab etmək mümkündür.

Məhəmməd Zəhəbi (1915-1977) təbiət qanunlarına əsaslanan yanaşmanı dindən dönənlər tərəfindən üstünlük verilən və ya istifadə edilən üsul kimi dəyərləndirildiyi halda, Cansen onu təbii tarixi yanaşma olaraq səciyyələndirir. Bu yanaşma üçün səciyyəvi olan ümumi təmayül bütün təfsir ədəbiyyatının faydasız olduğu iddiasına əsaslanır. Quranın və hədisin bəzi oturuşmuş prinsiplərini, həmçinin İbrahim, Musa, İsa, Süleyman və digər peyğəmbərlərin möcüzələrini inkar etməklə Quranı anlamaq üçün yeni bir üsulun mövcudluğunu iddia edir. Bu cərəyanın görkəmli təmsilçilərindən biri əl-Əzhər Universiteti tərəfindən müsadirə edilən mübahisəli "Əl-hidayə vəl-irfan" adlı əsərin müəllifi Məhəmməd Əbu Zeyddir. Həmçinin bu universitet sözügedən kitabın müəllifinin mürtəd elan edilməsi və məzmunun rədd edilməsi haqqında fitva da vermişdir.[32]

## Nəticə

Qədim tarixi olan təfsir elminin məqsədi Qurani-Kərimin həqiqi mənasını açıqlamaqdır. Təfsirçilərin hər bir nəsli təfsirə yaşadıqları zaman, məkan və şərait prizmasından yanaşmışdırlar. Qurani-Kərimin dəqiq və aydın izahının verilməsi bilavasitə ilk müfəssir Məhəmməd peyğəmbərlə *(Ona Allahın xeyir-duası və*

*salamı olsun!*) başlamışdır. Onun vəfatından sonra səhabələr Quranı və onun təfsirini müsəlmanların gələcək nəsillərinə çatdırmaq və öyrətmək kimi müqəddəs vəzifələrinin olduğuna inanmışdırlar. Səhabələrin dövründə dörd əsas Quran təfsiri məktəbi mövcud olmuşdur.

Bu məktəblərin hər biri təfsir sahəsində görkəmli təfsirçilər yetişdirmişdir. Tabiilər dövründə təfsir üsulu və mahiyyəti səhabə dönəmindəkindən çox da fərqlənməmişdir. Daha sonra alimlər arasında səhabələrin və onların xələflərinin təfsirinin qəti dəlil (hüccət) olub-olmaması məsələsi ciddi mübahisə mövzusuna çevrilmişdir. Bu mövzunun daha sonra İslam hüququ baxımından nəticələri olacaqdı. Səhabələrin təfsirinin vacib hökmü olduğuna inananların dəlilləri əsasən səhabələrin fəzilətli insanlar olmalarından irəli gəlirdi. Əksini iddia edənlərin dəlilləri isə bir qayda olaraq faktoloji materiala, yəni mətnə və əqli təhlilə əsaslanırdı.

İslamın yayıldığı ilk əsrdə Quranın tam mətnini əhatə edən təkmil bir təfsir əsəri yazılmamışdır. Bu qəbildən sayılan və günümüzə qədər gəlib çatan yeganə təfsir Təbərinin "Cəmi'ul-bəyən 'an tə'vili ayi'il-Qur'an" kitabıdır. Hicri 4-cü əsrdən sonra Quranın təfsiri sahəsində üç əsas yenilik baş vermişdir. Birincisi, təsdiq olunmamış məlumatlardan istifadə edilməyə başlanmışdır. İkincisi, bu dönəm ixtisaslaşma dövrü olmuşdur. Üçüncüsü isə, "təfsirul-bidə" ("töhmətəlayiq şərh") adlı təfsir növü ortaya çıxmışdır. Bu yeniliklər daha sonra Quranın təfsiri sahəsində iki mühüm istiqamətin yaranmasına gətirib çıxarmışdır. İki fərqli sahə olaraq "ət-təfsir bil-mə'sur" ("rəvayət əsaslı təfsir") və onun tam əksi olan "ət-təf-sir bir-rə'y" ("dirayət təfsiri") təşəkkül etmişdir. Bır sıra alimlər daha sonra sonuncu təfsir növünü də iki kateqoriyaya ayırmışdırlar: "ət-təfsir bir-rə'yil-məhmud" ("tərifəlayiq dirayət təfsiri") və bir-rə'yil-məzmum" ("töhmətəlayiq dirayət təfsiri").

İxtisaslaşma dövrünün səciyyəvi xüsusiyyəti təfsirin fiqhi, qrammatik, əqli və digər şərh formalarının yaranması ilə ixtisaslaşma sahələrinin genişlənməsi olmuşdur. Elmi, ədəbi, tarixi və filoloji təfsir kimi yeni təfsir kateqoriyaları yaradılaraq yeni təfsir cərəyanları meydana gəlmişdir. İslam elmlərinin ən mühümü olan Quran təfsirinin mahiyyətini, fikrimizcə, bilavasitə Quranın düzgün başa düşülməsi və onun ayələrinin həqiqi mənasının üzə çıxarılması təşkil edir. Həm dünya həyatında, həm də axirətdə uğur qazanmaq ancaq Allahın iradəsi və Onun insanlığa mesajında – Quranda buyurduğu prinsiplərə görə yaşamaq nəticəsində mümkündür. Bu səbəbdən də Quranın mətninin düzgün öyrənilməsi, araşdırılması, ona diqqət və üstünlük verilməsi, layıq olduğu hörmətin göstərilməsi son dərəcə vacibdir.

## Müəllif haqqında

Dr. Əli Süleyman Əli Qərb Vilayətləri Müsəlman İcmasının imamı və Müsəlman Ailələrinə Xidmət Xeyriyyə Təşkilatının (ICNARELIEF, ABŞ) direktorudur. Qanada anadan olmuşdur. 1979-cu ildə Mədinə İslam Universitetinin Ərəb dili və İslamşünaslıq fakültəsini bitirmişdir. Təqaüd proqramı ilə təhsilini Miçiqan Universitetində (Ann Arbor şəhəri) davam etdirərək islamşünaslıq üzrə magistr (MA) və fəlsəfə doktoru (PhD) dərəcəsini almışdır. Dr. Əlinin hüccət məsələsinə həsr olunmuş təfsir bil-mə’sur mövzusunda yazdığı dissertasiya işi bu sahədə mühüm tədqiqat əsəri sayılır. O, ABŞ-da Detroyt-Mersi Universitetində, Oakland Universitetində, Miçiqan ştatının Detroyt şəhərində Auburn Hils, Miçiqan və Vayne əyalət icmalarında islamşünaslıq, müsəlman dünyası, ərəb dili və Quran elmi fənlərindən mühazirələr oxumuşdur.

# İstinadlar

[1] Süyuti, Cəlaləddin Əbdürrəhman bin Əbi Bəkr,"Əl-itqan fi ulumil-Qur'an", I nəşr, Beyrut: "Dərul-kutubil-ilmiyyə", 1987/1407

[2] Eyni əsər, II cild, s.382

[3] Eyni əsər, II cild, s.381

[4] Yenə orada

[5] Əhməd ibn Hənbəl. "Əl-fəthur-Rəbbani li tərtib Musnədil-İmam Əhməd ibn Hənbəl əş-Şəy-bəni", red. Əbdürrəhman əl-Bənna. Qahirə, "Dəruş-şihəb", cild 18, s.175-176

[6] Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri. "Cəmi'ul-bəyən 'an tə'vil ayi'l-Qur'an"; red. Mah-mud Məhəmməd Şakir və Əhməd Məhəmməd Şakir. Qahirə, "Dərul-məarif", tarixsiz, I cild, s.204

[7] İbn Səid, Məhəmməd ibn Səid ibn Məni əz-Zuhri, "Ət-Təbəqatul-Kubra", Beyrut, "Dərul-Bədir", 1957, II cild, s.98-99

[8] Süyuti, Cəlaləddin Əbdürrəhman bin Əbi Bəkr, "Əl-İtqan fi Ulumil-Qur'an, II cild, s.419. Həmçinin, bax: Məhəmməd Əbdul-Ədhim əz-Zurqani. "Mənəhilul-irfan fi ulumil-Qur'an", II cild, s.32-33

[9] İbn Teymiyyə, Təqiyuddin Əhməd ibn Əbdulhəlim. "Muqəddimə fi usulit-təfsir"; red. Adnan Zorzo. Beyrut: "Dərul-Qur'anil-Kərim, 1979/1399, s.52

[10] İbn Həcər əl-Əsqəlani. "Əl-isabə fi təmyizis-səhabə", Qahirə: "Məktəbətul-Kulliyə", 1969, II cild, s.83

[11] Yenə orada

[12] Seyfəddin əl-Amidi. "Əl-ihkam fi usulil-əhkam", red. Əbdurrəzzaq Əfifi, II nəşr, Beyrut: "Əl-məktəbul-isləmi", hicri 1402, IV cild, s.140-145

[13] İbn Kəsir. "İxtisaru ulumil-hadis", Beyrut, "Dərul-fikr", 1967, s. 67

[14] İbn Teymiyyə. "Muqaddimə fi usulit-təfsir", s.105

[15] Məhəmməd Əbu Zəhra. "Əl-Mucizət əl-Kubra: əl-Qur'an", Beyrut, "Dərul-fikril-arabi", tarixsiz, s.513

[16] İbn Kəsir. "Təfsir ibn Kəsir", I cild, s.412-413

[17] Yenə orada, VII cild, s.412

[18] Yenə orada

[19] Yenə orada

[20] Yenə orada, s.476

[21] "Sahih əl-Buxari", IV cild, s.123-170

[22] İbn Mənzur. "Lisan əl-ərəb", Beyrut: "Dərul-Bədir", tarixsiz, XIV cild, s.299-300

[23] Cəmaləddin Əbu Məhəmməd ibn Abdullah ibn Yusuf ibn Hişam əl-Ənsari. "Ət-təsrih alət-təvdih", red., "Məcmuə minəl-uləmə", Beyrut: "Dərul-fikr", I cild, s.26

[24] Məhəmməd ibn Yusuf ibn Əli əl-Əndəlusi Əbu Həyyan. "Əl-bəhrul-muhit", Riyad: "Məktəb və matbəətul-həşr əl-hadis", III cild, s.178

[25] Yenə orada, III cild, s.397

[26] Məhəmməd ibn Əbdürrəhman ibn Əbdürrəhim əl-Mubərəkpuri. "Tuhfətul-əhvazi şərhu cəmi'ut-Tirmizi", red. Əbdürrəhman Osman, Beyrut: "Dərul-fikr", I cild, s.270-280

[27] Əl-Qəzali, "İhya'u ulumid-din", I cild, s.292

[28] İbn Teymiyyə, "Məcmu'at muəlləfət Şeyxilislam ibn Teymiyyə". red. Əhməd Əbdürrəhman ibn Məhəmməd ibn Qasim əl-Nəcdi əl-Hənbəli, Məkkə: "Mətbə ən-nəhda əl-hədis", 1404/1983, XIII cild, s.471

[29] Subhi əs-Salih. "Məbəhis fi ulumil-Qur'an", II nəşr, Beyrut: "Dərul- mələyin", 1986, s.297

[30] Seyyid Qutb. "Fi zilalil-Qur'an", X nəşr, Beyrut: "Dəruş-şuruq", 1982/1400, I nəşr, s.11-16

[31] Əl-Qəttan, Mənna ibn Xəlil. "Məbahis fi ulumil-Qur'an", Qahirə: "Məktəbətul-Vəhbə", 1981, s.375

[32] Məhəmməd Huseyn əz-Zəhəbi. "Ət-təfsir vəl-mufəssirun", I nəşr, Qahirə: "Dərul-kutubil-hədisə", 1961/1381, II cild, s.500-509

Beynəlxalq İslam Fikri İnstitutunun müxtəsər kitablar seriyası institutun əsas nəşrlərindən xülasə edilərək hazırlanmış variantlarından ibarət mühüm layihədir. Məqsəd oxucuda orijinalın əsas məzmunu haqqında ümumi təsəvvür oyatmaqdır. Qısa, oxunaqlı və vaxta qənaət etmək imkanı verən formatda hazırlanmış bu müxtəsər kitablar bir növ bələdçi rolunu yerinə yetirir. Xüsusi diqqət və səylə hazırlanmış müxtəsər kitabların oxucularda maraq və əsas nəşrlə daha yaxından tanış olmaq arzusu oyadacağına ümid edirik.

Əli Süleyman Əlinin "Quran təfsirinin müxtəsər icmalı" adlı mövcud əsəri təfsir elmi sahəsində ixtisaslaşan tələbələri Məhəmməd peyğəmbərin (Ona Allahın xeyir-duası və salamı olsun!) dövründən günümüzə qədər təfsirşünaslığın keçdiyi inkişaf yolu ilə tanış etmək məqsədini daşıyır. Kitabda Həzrət Peyğəmbərin Quranı təfsir etmə metodunun mahiyyəti, xüsusiyyətləri və metodologiyası öz əksini tapır. Həmçinin səhabələrin və onları həyatda görərək hədis dinləmiş nəsil mənasına gələn tabiilər dönəmi təfsirlərinin mötəbərlilik dərəcəsi, xüsusiyyətləri və metodologiyaları müqayisəli təhlilə cəlb olunur.

Mövcud müxtəsər icmalın tərtibi zamanı müəllifləri qeyd edilməklə müxtəlif təfsir növlərindən bir sıra izahlara da yer verilir. Kitabda iki əsas təfsir növü olan "ət-təfsir bil-mə'sur" ("rəvayət əsaslı təfsir") və "ət-təfsir bir-rə'y" ("dirayət təfsiri") nəzərdən keçirilir. Eyni zamanda dünyada təfsir sahəsindəki yeni araşdırmalara da müraciət edilən kitabda klassik əsərlərlə müasir təfsirlər arasındakı bəzi fərqliliklərə də diqqət yetirilir. "Quran təfsirinin müxtəsər icmalı" əsərinin yazılmasının əsas məqsədi oxuculara təfsir elminin keçdiyi inkişaf yolu və bır sıra məşhur Quran müfəssirlərinin əsərləri barədə məlumat verməkdir. Bu müxtəsər icmalın xüsusilə təfsir elminə dair fənlərin tədrisi prosesində tələbələrin marağına səbəb olacağına və onlarda təfsir sahəsində tədqiqat aparmağa maraq oyadacağına ümid edirik.

Beynəlxalq İslam
Fikri İnstitutu

9 789952 844542